**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№353/5** **08 fevral 2023-cü il**

**2022-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil barədə**

Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 4.1-ci "2022-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə (V.Rəhimov) və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) tərəfindən hazırlanmış "2022-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil"i müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "2022-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil" şərti bəyənilsin (əlavə olunur).
2. 2022-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin tam əhatə olunmaması Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi komitəsinin sədri V.Rəhimovun və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədovun nəzərlərinə çatdırılsın və onlara tapşırılsın ki, yol verilmiş geriliyi cari ilin I yarımili ərzində aradan qaldırsınlar.
3. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi komitəsinə (V.Rəhimov) və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2023-cü il üçün Plan-qrafik"ə uyğun olaraq işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin.
4. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin müfəttişləri Əliyev Azər Hüseyn oğluna, Hacı-Əzizov İlham İsfəndiyar oğluna, Kərimov Şamxal Vəli oğluna, Məmmədov Davud Zahid oğluna, İsmayılov Elxan Əsgər oğluna, Talıbov Vidadi Musa oğluna, Qarayev Fəqan Şakir oğluna və Vəlizadə Səftər Vəli oğluna 2022-ci il ərzində keyfiyyətə kənar nəzarətə dair həyata keçirilmiş monitorinqlərdə fəal iştirak etdiklərinə görə təşəkkür elan edilsin.
5. Bu qərarın və icmal-təhlilin mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**